# Nazim Hikmət və Bakı küləyi

**”...İstanbulda universitedə şeir oxuyan Azərbaycanlı şairdən bir xahişim var o, ora getdiyi zaman mənim İstanbullu gənclərimə desin ki, bizədə sənin Nazimin gəldi biz onu qardaş kimi bağrımıza basdıq və biz ona çox şey öyrətdik.Nə öyrəndisə bu dünyada çoxunu bizdən öyrəndi.Bunu söyləməyi unutmasın və məndən salam söyləsin.Çünki, bəlkədə mən məmləkətimə qovuşa bilmədim amma o məmləkətimi görür”.İl 57.**

Bu çıxışı Türk dünyasının böyük şairi Nazim Hikmət Bakıda tələbələrlə görüşündə vurğulamışdır.Gələcəyi görən böyük şair bu çıxışı ilə sonrakı nəsillərə qardaş yurddan bir məktub buraxmış kimi dəyərli ismarıc verdi.

”Bakıya gəldim dünyalar mənim oldu” deyən şair Bakını öz ana yurdu kimi sevir və məhəbbət bəsləyirdi. Həmin ki, zamanda Azərbaycanlılar və Azərbaycanın öndə olan zaiyalıları Nazim Hikmətə sevgi ilə qucaq açmış və onun həm insani keyfiyyətlərinə, həm də yaradıcılığına böyük qiymət vermişdilər.Məhz şairlərimizin və ziyalılarımızın köməkliyi ilə Nazim Hikmətin ilk kitabı ”Günəşi İçənlərin Türküsü” Bakıda nəşr olunmuşdur.

Bakıda özünü öz evindəki kimi hiss edən şairin ətrafına həmin dövrün şairləri-Səməd Vurğun,Rəsul Rza,Süleyman Rüstəm,Mikayıl Rəfili və eləcə də onlarla qabaqcıl ziyalılar yığışırdılar.Onlar Nazim Hikmətlə elmi bədii ədəbi müzkirələr aparır, qardaş Türkiyənin həmin zamanlardakı vəziyyətini müzakirə edirdilər.



Üzeyir Hacıbəyovun sənətinə yüksək qiymət verən şair həmdə Maestro Niyazi sənətinə böyük məhəbbət bəslədiyini həmişə vurğulamışdır.

XX-əsrin dünyanın dəyərli baletlərindən olan Məhəbbət Əfsanəsi baletini böyük şairin əsəri əsasında dəyərli bəstəkarımız Arif Məlikov yazmışdır.Bu baletin maraqlı yaranma tarixi olub.Beləki Nazim Hikmətə bildirmişdilərki gənc Azərbaycanlı bəstəkar Arif Məlikov əsərlərinin birinə balet bəstələmək istəyindədir.Nazim Hikmət isə ”Mən ona inanıram. İnanıramki bu balet bütün dünyada məhşur olacaq və seviləcək” demişdir.

Nazim Hikmət Moskvada olarkən ona ən yaxın dostlarından olan Əkbər Babayev daim onun həyat və yaradıcılığı haqqında araşdırmalar aparır və Nazim Hikməti heç zaman tək qoymurdu.

Nazim Hikmətsə Əkbər Babayevdən söz düşəndə ”Məni mənə tanıdan adam” deyə vurğulayırdı.

Daim vətən məmləkət həsrəti ilə yanıb tutuşan şair həsrətini Bakıda Xəzərin sahilində ovudurdu.

Bakını həm İstanbula, həmdə İzmirə bənzədən şair şeirlərin birində qeyd edirki:

”Xəzərdə dost gəzər eyy
Düşmən gəzər”

deyərək düşmənlərin gözü həmişə Bakıda olmağını söz altında ifadə etmişdir.

Dəyərli elm xadimlərimizdən olan Aqşin Babayev Nazim Hikmətlə bağlı araşdırmalar aparmış və Nazim Hikmətin Bakıda olduğu zaman özünü necədə xoşbəxt hiss etdiyini dəfələrlə vurğulamışdır.

Nazim Hikmət həyatda olmasada Bakıya olan məhəbbətini öz əsərlərində böyük sevgi ilə bildirmiş və Azəri qardaşlarına dərin hörmət bəsləmişdir.

Azərbaycan xalqı var olduqca gözəl paytaxdımız küləklər şəhəri Bakı var olduqca Nazim Hikmət unudulmayacaq və küləklər şəhərində daima yad edəcəyik.

**İsrafil Emin Qarabaği**

Ədalət 2019.- 8 avqust.- S.4.